

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 77 (23.239)

*26 aprel 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində "Huawei" şirkətinin sədri Lian Xua ilə görüşüb.

Prezident İlham Əliyev "Huawei" şirkətinin Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirib, bu şirkətin informasiya-kommunikasiya texnologiyaları sahəsində dünyanın aparıcı şirkətlərindən biri olduğunu qeyd edib.

Söhbət zamanı İKT infrastrukturu, ağıllı kənd təsərrüfatı, ağıllı şəhər və ağıllı ev, rəqəmsal iqtisadiyyat, rəqəmsal təhsil və digər sahələrdə reallaşdırıla biləcək layihələrlə bağlı fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Pekində "China National Electric Engineering" şirkətinin prezidenti Cao Huy ilə görüşüb.

* * *

Dövlətimizin başçısı həmin gün Pekində "China Poly Group" Korporasiyasının sədri Su Nianşa ilə görüşüb.



## Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının şura iclası keçirilib



Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında 2019-cu ilin birinci rübündə görülmüş işlərin yekunları, qarşıda duran vəzifələrlə bağlı keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov hesabat məruzəsi ilə çıxış edib.

Bildirilib ki, rayon təşkilatı fəaliyyətini təsdiq olunmuş iş planı əsasında qurub. Vaxtlı-vaxtında keçirilən partiya yığıncaqlarında görülən işlərin hesabatı dinlənilib.

Diqqətə çatdırılıb ki, Sədərək Rayon Təşkilatının əhatə etdiyi 23 ilk partiya təşkilatının qeydiyyatında 1541 üzv vardır. Partiya üzvlərinin 308-i qadın, 400-ü isə gəncdir. Hesabat dövründə təşkilatın sıralarına 14 üzv qəbul edilib.

Vurğulanıb ki, 2019-cu ilin birinci rübündə təşkilatın 1 şura iclası, 3 İdarə Heyəti yığıncağı keçirilib.

Arif Qasımov deyib ki, 2019-cu ildə partiya üzvlərinin qarşısında duran əsas vəzifə əhali arasında ideya-siyasi işi gücləndirməkdən ibarət olmalıdır. Partiyanın hər bir üzvü Proqram və Nizamnamənin tələblərinə, prinsiplərinə əməl etməli, siyasi proseslərdə, rayonda gedən quruculuq-abadlıq işlərində, yaşıllaşdırma tədbirlərində və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsində fəallıq göstərməlidir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyeva, Heydərabad qəsəbə ərazi ilk partiya təşkilatının sədri Vüqar Qasımzadə, Sədərək kənd ərazi ilk partiya təşkilatının sədri Əjdər Məmmədhəsənov çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi uğurlu inkişaf strategiyası bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu da Azərbaycanın yeni müstəvidə inkişafını təmin edib. Bu gün Naxçıvan Muxtar Respublikası da bütün sahələrdə böyük nailiyyətlər qazanır. Qədim diyarımız başdan-başa gözəlləşir, quruculuq işləri hər il daha da geniş vüsət alır. Bu prosesdə Yeni Azərbaycan Partiyasının üzvləri də fəaldırlar.

Şura iclasında müzakirəyə çıxarılan məsələ ilə əlaqədar qərar qəbul olunub.

**Sərxan İSMAYILOV**

## Muxtar respublika üzrə 760 nəfərə birdəfəlik maddi yardım ödəniləcək

Ölkə başçısı müharibə veteranlarına göstərdiyi diqqət və qayğının bariz nümunəsi olaraq 2019-cu il aprelin 23-də "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalamışdır.

Həmin sərəncama əsasən 1941-1945-ci illərdə İkinci Dünya müharibəsi iştirakçılarına 1000 (min) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım ödənilməsi nəzərdə tutulmuşdur.

Sərəncamın icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən birdəfəlik maddi yardımların həmin şəxslərə vaxtında çatdırılması üçün müvafiq işlər həyata keçirilir. Sərəncama əsasən muxtar respublika üzrə 760 nəfərə birdəfəlik maddi yardımın ödənilməsi nəzərdə tutulub. 21 nəfər 1941-1945-ci illərdə İkinci Dünya müharibəsi iştirakçısının hər birinə 1000 (min) manat, 739 nəfər İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarının hər birinə isə 500 (beş yüz) manat məbləğində birdəfəlik müavinət ödəniləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Rabitə Evi yenidən qurulur

*Cari ildə Culfa rayonunda həyata keçirilən tikinti-quruculuq işləri sırasında rayon mərkəzində Rabitə Evinin yenidən qurulması da vardır. Tikinti işlərinə cari ilin mart ayının əvvəlindən başlanılıb.*

Ötən dövr ərzində binanın dam örtüyü vurulub, zirzəmi hissəsinin ətrafında və özül hissəsində bərkitmə tədbirləri görülüb. Hazırda binanın fasad hissəsində və daxilində suvaqçəkmə, pəncərələrin quraşdırılması, otaqların arakəsməsinin hörgü işləri aparılır.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Culfa Rayon İdarəsinin iş icraçısı Babalı Hüseynov bildirdi ki, binada mühafizə, bağlama və çeşidləmə, qəzet və jurnal yayımı, Naxtel müştərilərinə xidmət, təsərrüfat müdiri, xidmət zalı, arxiv otaqları, ATS, qarderob, texniki işçilər üçün otaqlar olacaq.

Obyektdə, əsasən, yerli tikinti materiallarından istifadə edilir. İnşaatçılar Rabitə Evini nəzərdə tutulan vaxtda istifadəyə vermək üçün səy və bacarıqlarını əsirgəmirlər.



**Hüseyn ŞƏKƏRƏLİYEV**

## Startap layihələrin hazırlanması və tətbiqi məsələləri müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının və 2019-cu il 15 aprel tarixdə keçirilən müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar tədbir olub.*

Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə Mədəniyyət Nazirliyinin əməkdaşları, Naxçıvan Müəllimlər İnstitutunun bir qrup müəllim və tələbəsi iştirak ediblər.

Ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək bildirib ki, ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi, gənclərin innovativ ideyalarının dəstəklənməsi kadr hazırlığına müasir yanaşma və vətəndaşın cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin edir. Rektor universitetdə startap layihələrin hazırlanması və qiymətləndirilməsi məqsədilə görülən işlərdən danışıb.

Mədəniyyət naziri Natəvan Qədimova çıxışında qeyd edib ki, Ali Məclis Sədrinin "Ali və orta ixtisas müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası məqsədilə həmin ildən etibarən Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması, Kitabxanaçılıq və informasiya ixtisaslarının, həmçinin Naxçıvan Müəllimlər İnstitutunun, "Naxçıvan" Universitetinin müvafiq ixtisaslarının tələbələri üçün kollektiv görüşlər, açıq dərslər, dəyirmi masalar, kitab müzakirələri, mühazirələr, ustad dərsləri, konfranslar, tarixi abidələrə ekskursiyalar təşkil olunub, filmlər nümayiş etdirilib. Adıçəkilən müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar olaraq nazirliyin tərkibində ekspert qrupu yaradılıb, müxtəlif fənlər üzrə mütəxəssislər dəvət edilib. Yeni sərəncama əsasən 21 ixtisas nazirliyin hamiliyinə verilib.

Çıxışda hamiliyə verilmiş ixtisaslar başda olmaqla, universitetin hər bir yaradıcı gəncini əhatə edən layihədə innovativ ideyaların qiymətləndiriləcəyi diqqətə çatdırılıb.

Qeyd olunub ki, tələbələr üçün ustad dərslərinin davam etdirilməsi, Aktyorluq ixtisası üzrə təhsil alan tələbələrin qrafik üzrə muxtar respublikada fəaliyyət göstərən teatrların məşqlərində iştirakına nail olunması nəzərdə tutulub. Həmçinin Naxçıvan Dövlət Film Fondunda filmlərə baxışların, müsabiqələrin keçirilməsi, tələbə teatr tamaşalarının, bir çox mövzulara həsr olunmuş sosialyönümlü videoçarxların hazırlanması, Kitabxanaçılıq və informasiya ixtisasında təhsil alan tələbələrlə kitabxana işçilərinin təcrübələrinin bölüşdürülməsi də diqqətdə saxlanılacaqdır.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "Naxçıvan Müəllimlər İnstitutunda kitabxanaçı kadrların hazırlanmasında yeni mərhələ: "Startap Naxçıvan"ın faydaları" adlı çıxışında startap hərəkatının artıq geniş vüsət aldığını qeyd edib. Bildirilib ki, institutda İnnovasiya laboratoriyası (İnnoLab) yaradılıb. Burada tələbələrin startapla bağlı biliklərinin formalaşması, biznes layihə və planlarının qurulması, bu layihələrin təqdimatı ilə bağlı maarifləndirici treninqlərin keçirilməsi laboratoriyanın iş prinsipinə daxildir.

Diqqətə çatdırılıb ki, ali təhsil ocağının internet saytında da startap layihələrin qəbulu ilə bağlı yaradılan "İdeya bankı"na innovativ pedaqoji layihələri olan istənilən şəxs müraciət edə bilər.

Sonda müzakirə aparılıb, təkliflər dəyərləndirilib.

**Səadət ƏLİYEVA**

*2000-ci ildən başlayaraq Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təşəbbüsü ilə aprel ayının 26-sı dünyada “Beynəlxalq Əqli Mülkiyyət Günü” kimi qeyd edilir.*

*26 aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür*

# Əqli mülkiyyət hüquqları qorunur

Biliklərə əsaslanan XXI əsr iqtisadiyyatında əqli mülkiyyət intellektual kapital rolunda çıxış edir. İnkişaf etmiş ölkələrdə artıq əqli mülkiyyət aktivləri maddi aktivləri üstələyərək dünya iqtisadiyyatında yeni mərhələ yaratmışdır. Vaxtilə xammal və materiala əsaslanan iqtisadiyyatlar yeni mərhələdə kreativ iqtisadiyyata çevrilmiş və nəticədə, əqli mülkiyyət fenomeni prioritet fəaliyyət və təhlil istiqaməti kimi formalaşmışdır. Bu gün əqli mülkiyyət hər bir ölkənin davamlı inkişafında əsas rol oynayır. Çünki elm, texnika və mədəniyyətin inkişafı əqli mülkiyyət hüququnun qorunmasından asılıdır. Bu mənada, əqli mülkiyyətin mühafizəsi sahəsindəki dövlət siyasəti həm də ölkənin elmi-texniki potensialının inkişafı və bu potensialdan səmərəli istifadəyə səbəb olur. Buna görə də əqli mülkiyyət məsələlərinin milli qanunvericiliyə inteqrasiyası vacib mərhələ kimi qəbul olunmaqdadır.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə əqli mülkiyyətlə bağlı münasibətlərin tənzimlənməsi istiqamətində mühüm işlər görülmüş, əqli mülkiyyətin qorunması və inkişafına diqqət artırılmış, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. 1996-cı ildə “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, 1997-ci ildə “Patent haqqında”, 1998-ci ildə “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının qanunları qəbul olunmuş, ölkəmiz 1995-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis etdiyi Konvensiyaya və Avrasiya Patent Konvensiyasına qoşulmuş, Avropa Patent Təşkilatı ilə əməkdaşlıq əlaqələri qurmuşdur.

Bu gün ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qeyri-neft sektorunun inkişafına yönəldilən məqsədyönlü iqtisadi siyasət təcrübələrə və insan kapitalına hesablanan innovativ iqtisadiyyatın inkişafına xidmət etməkdədir. Cəmiyyətimizdə əqli mülkiyyətə iqtisadi faktor kimi artan maraq da bütün bunların əyani sübutudur. Sürətlə dəyişən dünyada Azərbaycan getdikcə öz mövqelərini möhkəmləndirir və layiqli yerini tutur. “Davamlı inkişafın Azərbaycan modeli” bir sıra vacib amilləri, o cümlədən biliklərə əsaslanan tərəqqini, informasiya-kommunikasiya texnologiyaları və əqli mülkiyyətin prioritetliyini özündə cəmləşdirir. ***“İndi dünyada inkişaf təbii sərvət üzərində deyil, bilik, müasir texnologiya üzərində qurulur. Bu səbəbdən biz təbii sərvətlərin insan kapitalına çevrilməsinə çalışırıq”***, – deyən ölkə Prezidenti cənab İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilən milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində əqli mülkiyyətin, kreativ sənayenin inkişaf etdirilməsi kimi məsələlər də öz əksini tapıb.

Əqli mülkiyyət sahələri – ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilər ölkəmizdə Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılmış normativ-hüquqi aktlarla tənzimlənməkdədir. 2012-ci ildə “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun qəbul olunması bu sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirmişdir. Ölkəmiz əqli mülkiyyət hüquqlarının qorunması sahəsində beynəlxalq sistemə uğurla inteqrasiya olunmuş, yaradıcılıq fəaliyyəti nəticələrinin hüquqi mühafizəsinə əlverişli zəmin yaradılmışdır.

Azərbaycanın bugünkü reallıqları ondan ibarətdir ki, ölkəmiz dünya ölkələri tərəfindən tanınan islahatçı dövlətdir və bu islahatlar hər bir sahədə, o cümlədən əqli mülkiyyət sahəsində geniş miqyasda həyata keçirilir. 2018-ci ildə reallaşdırılan struktur, institusional və iqtisadi islahatlar nəticəsində əqli mülkiyyət sistemində əhəmiyyətli təşkilati və funksional dəyişikliklər baş vermişdir. Dövlət başçısının müvafiq sərəncamı ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılmışdır. Agentlik respublika ərazisində əqli mülkiyyət hüquqları sahəsinin səmərəli fəaliyyətini, dayanıqlı inkişafını və şəffaflığını təmin etmək, əqli mülkiyyət hüquqları sahiblərinin hüquqlarını qorumaq, sözügedən sahədə bilikləri və informasiya cəmiyyətinə təsiri artırmaq, əqli mülkiyyət hüquqlarının tənzimlənməsi sahəsində mütərəqqi korporativ idarəetmə standartlarını əsas götürərək verilmiş tapşırıqları uğurla icra edir.

Naxçıvan Muxtar Respublikasında əqli mülkiyyət hüquqlarının qorunması və bu sahənin innovativ inkişafı üzrə həyata keçirilən uğurlu iqtisadi siyasət, ümumilikdə, əqli mülkiyyət sisteminin səmərəli formalaşması üçün ciddi əsaslar yaratmışdır. İntellektual kapitaldan aktiv istifadənin və texnoloji inkişafın davamlı olaraq stimullaşdırılması hazırda üstün istiqamət kimi saxlanılmaqdadır.

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin qarşısında muxtar respublikada innovasiyalı inkişafla bağlı yürüdülən iqtisadi siyasətə uyğun olaraq innovativ inkişafa adekvat xidmətlərin göstərilməsi, əqli mülkiyyətin mühafizəsinin formalaşdırılması və müasir trendə uyğunlaşdırılaraq sənayedə tətbiqi kimi funksional vəzifələr dayanır. Agentliyin qarşısında duran vəzifələrin yerinə yetirilməsində, əqli mülkiyyətin əhəmiyyətinin və faydasının artırılmasında əsas prinsip muxtar respublikada iqtisadi islahatların uğurla həyata keçirilməsinə xidmət etməkdir. Bununla da əqli mülkiyyət investisiyalarının cəlb edilməsi və innovasiyaların həyata keçirilməsində fəal iştirakçıya çevrilmək, yeni texnologiyaların kommersiyalaşdırılmasını dəstəkləmək əsas hədəflərdəndir. Agentlik sənaye mülkiyyəti obyektlərinin mühafizəsi üçün əqli mülkiyyətin qorunması sahəsində mütəmadi tədbirlər həyata keçirir, muxtar respublikada patent sahəsinin inkişafını diqqətdə saxlayır. Patent sistemi vasitəsilə sənaye mülkiyyəti obyektlərinə dair iddia sənədlərinin qəbulu və ekspertizası həyata keçirilir, dövlət reyestri aparılır, bu sahədə hüquqların qorunması və beynəlxalq sistemlərə inteqrasiya təmin olunur.

Fəaliyyəti dövründə agentliyə ixtira, sənaye nümunəsi, faydalı model, əmtəə nişanı və coğrafi göstəricilər üçün 2021 müraciət daxil olmuş və dövlət ekspertizası aparılmışdır. 28 ixtira, 46 sənaye nümunəsi və 1 faydalı model patentləşdirilmiş, əmtəə nişanlarına dair 1073, coğrafi göstəricilərə dair 5 şəhadətnamə dövlət reyestrində qeydiyyata alınmışdır. Agentliyin tərkibində fəaliyyət göstərən Elmi-Texniki Kitabxananın patent fondu da komplektləşdirilmişdir. Fondda xarici ölkələrə məxsus 3 min 655 ixtira, həmçinin əmtəə nişanları və coğrafi göstəricilər, ixtiralar, faydalı modellər və sənaye nümunələrinə dair rəsmi bülletenlər toplanmış və yeni ədəbiyyatlarla zənginləşdirilmişdir. Əqli mülkiyyət hüquqlarının qorunmasına, bu sahədə maarifləndirmə işlərinin genişləndirilməsinə və əqli yaradıcılıq nəticələrindən qeyri-qanuni istifadənin qarşısının alınmasına da xüsusi diqqət yetirilir.

Muxtar respublikada əqli mülkiyyətin inkişaf etdirilməsi, ixtiraların istehsalatda tətbiqi və alınmış patentlərin beynəlxalq mühafizəsi tədbirləri bundan sonra da üstün istiqamət kimi davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin mətbuat xidməti***

*“Ailə təsərrüfatları ili” – 2019*

# Torpaq ovuclayan qızıl ovuclar

***Qadın torpaq mülkiyyətçisi deyəndə bir neçə il bundan əvvəl bir çoxları üçün bu ifadə qəribə səslənirdi. Belə bir düşüncə vardı ki, qadınlar torpağa sahiblənə, ondan qazanc götürə bilməzlər. Ancaq indi hər kəs qadınlarımızın bu sahədə böyük uğurlar qazandıqlarına şahidlik edir. Çünki bu gün qadınlar bütün sahələrdə olduğu kimi, sahibkarlıqda da fəallıq nümayiş etdirirlər.***



Bu dəfə yolumuz Sədərəyədir. Rayonun Sədərək kənd sakini Mehbarə Hüseynova ilə həmsöhbət olacağıq. Onu Sədərəkdə fəal torpaq mülkiyyətçisi kimi tanıyırlar. Əkib-becərmək zəhmət tələb edən iş olsa da, bu çətinliklər onu qorxutmayıb, əksinə, torpağa daha möhkəm tellərlə bağlanıb. Amma Mehbarə xanımın işi təkcə torpaq əkib-becərməklə bitmir. O, Sədərək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Uşaq şöbəsinin müdiri olmaqla bərabər, rayon Mədəniyyət Sarayının nəzdində həvəskar dərnək də yaradıb. Burada uşaqlara milli rəqslərimizi, xalq yaradıcılığı nümunələrini öyrədir. Sədərəkdə elə bir tədbir olmaz ki, orada bu dərnək üzvləri yaddaqalan çıxışlar etməsinlər.

Zövqlə tikilmiş kənd evinin aynabəndində hazırlanmış çay süfrəsi arxasında onunla söhbətimiz qadınlarımızın torpağa sahiblənməyinin üstünlükləri barədə oldu. Mehbarə Hüseynova dedi ki, təsərrüfat qurmağa başladığı gündən dövlətimizin diqqət və qayğısı sayəsində bütün çətinliklərə sinə gərə bilib. O, ötən il bir hektar sahədə taxıl, yarım hektara soğan, 0,5 hektara sarımsaq, kartof, bu ilin yazında isə 2 hektar arpa əkib.

“Torpağın da dili var”, – demişlər müdriklər. Torpaq da canlıdır, qayğıya möhtacdır. Əgər torpağı öz dilində danışdıra bilsək, nazını çəkib qayğıya bürüsək, onda istədiyimizi zəhmətimizin qarşılığında ən yüksək formada əldə edə bilərik. Təbiətin bizə bəxş etdiyi ən böyük sərvəti – torpağı sevmək, qayğısına qalmaqla özümüzə yaxşılıq etmiş oluruq. Əbəs yerə atalarımız “Torpaq deyir: sən mənə tər ver, mən sənə zər verim”, – deməyiblər.

Hər il yetişdirdiyi məhsullardan yaxşı gəlir əldə etdiyini deyən müsahibim onu da vurğuladı ki, əvvəllər bu işə başlayarkən bir çox insanlar onun buna gücünün yetməyəcəyini deyirdilər. Ancaq üzləşdiyi heç bir çətinliyə görə ruhdan düşməyib. O, 2018-ci ildə keçirilən “Ailə təsərrüfatı məhsulları” festivalında üçüncü, builki “Kətə” festivalında ikinci yerə layiq görülüb. Yeni il şənliyində şəhər sakinlərinə ictimai iaşə xidməti göstərən ailə təsərrüfatları içərisində onun təsərrüfatının məhsulları çeşid və keyfiyyəti ilə seçilib.

Mehbarə xanım 2019-cu ilin “Ailə təsərrüfatları ili” elan edilməsinə də çox sevindiyini bildirir: – Dövlətimizin məqsədi odur ki, hər bir kəndli ona düşən torpaq payını boş saxlamasın. Buna görə də kənd adamlarına güzəştli kreditlər verilir, istehsal olunan məhsulun satışı təşkil edilir. Bütün bunlar da kəndlini torpağa, öz elinə-obasına bağlayır.

Müsahibim deyir ki, ailəmizin firavan dolanışığı torpaqla, əkin-biçinlə təmin olunur. Qadınlara kiçik fermer təsərrüfatları yaratmaq sahəsində dövlət dəstəyi ilə yanaşı, ailələri də onlara arxa-dayaq olmalıdır. Mənim də bu işlərdə ən böyük dayağım ailəmdir. Atamın və qardaşımın köməyi ilə öhdəsindən gələ bilməyəcəyim iş yoxdur.




Gələcək planlarından söhbət açan müsahibim onu da bildirir ki, yaxın günlərdə dövlət maliyyə dəstəyi ilə kənd qadınları ilə birgə yeni təsərrüfat sahəsi yaratmaq istəyir. Ona görə də builki mövsümdə daha çox tərəvəz əkib-becərməyi planlaşdırır. Mehbarə xanım onu da deyir ki, təsərrüfatını genişləndirərək qış üçün azuqələrin – meyvə şirələrinin, mürəbbələrin, cemlərin, müxtəlif yeməklərin hazırlanıb qablaşdırılması üçün şərait yaratmağı da planlaşdırır. Burada on qadına da yeni iş imkanı açılacaq.

Müsahibim gələcək planları haqqında həvəslə danışdıqca düşünürəm ki, bu gün qadınlarımızın torpaqdan dördəlli yapışmalarının, heç nədən çəkinmədən sahibkarlıqla məşğul olmalarının səbəbi məhz dövlətimizin bu sahəyə olan qayğısından irəli gəlir. Qadınların iqtisadi sahədə fəallığının daha da artırılması üçün həvəsləndirici tədbirlər görülür. Eyni zamanda qadınların bizneslə məşğul olmaları və aqrar təsərrüfatlarını qurmaları üçün də şərait yaradılır. Bunun nəticəsidir ki, son illər qadın sahibkarların, eləcə də torpaq mülkiyyətçilərinin sayı xeyli artıb.

Bu gün Mehbarə xanımın timsalında kiçik bir ailə təsərrüfatı ilə sahibkarlığa gedən yolun başlanğıcına qədəm qoyan gənc bir qadının torpaqda çəkdiyi zəhmətin müqabilində qazandığı uğurları gördük. Bu, kənd yerlərində yaşayan bir çox qadınlarımıza nümunədir. Deməli, aqrar təsərrüfatla məşğul olan kənd adamı xeyir götürür ki, sahəsini də genişləndirir. Bu da sirr deyil ki, muxtar respublikamızda dövlət dəstəyindən səmərəli istifadə edən qadınlarımız sonradan sahibkara çevrilirlər.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Tarla seminar müşavirəsi keçirilib

Dünən Şərur rayonunda Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi əməkdaşlarının iştirakı ilə “Kənd təsərrüfatında əkilib-becərilən bitkilərin xəstəlik, zərərverici və alaq otlarına qarşı kompleks mübarizə tədbirlərinin aparılmasına dövlət dəstəyi” mövzusunda tarla-seminar müşavirəsi keçirilib.



Müşavirəni giriş sözü ilə Şərur Rayon İcra Hakimiyyətinin məsul işçisi Kamal İsmayılov açaraq tədbirin məqsədi və əhəmiyyəti barədə danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının ən böyük bölgəsi olan və əhalisinin 70 faizinin kəndlərdə yaşadığı Şərur rayonunda ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi istiqamətində görülən tədbirlər davam etdirilir. Dövlət proqramlarının uğurlu icrası və həyata keçirilən digər tədbirlər nəticəsində inkişaf təmin olunub, daxili bazarlarda məhsul bolluğu yaranıb. Bölgənin muxtar respublikada meyvə və bostan bitkilərinin əkilib-becərilməsində, əhalinin bu məhsullara olan tələbatının ödənilməsində mühüm yeri var. Hər il rayonda əkinçilikdə böyük uğurlar qazanılır. Bunun üçün aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi diqqətdə saxlanılır.

Nazirliyin əməkdaşları Əsgər Həsənov və Yaşar Quliyev əkilib-becərilən bitkilərin xəstəlik, zərərverici və alaq otları ilə kompleks mübarizə tədbirlərinin aparılmasına dair tövsiyələr veriblər. Karantin mənşəli orqanizmlərə qarşı kimyəvi mübarizə tədbirlərinin aparılması məqsədilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Fitosanitar Xidmətinin Bitki Mühafizə Mərkəzindən gətirilmiş pestisidlərin norma və nisbətləri nəzərə alınaraq dərman preparatları verilib. Həmin preparatlardan istifadə qaydaları barədə iştirakçılar məlumatlandırılıblar.

Müşavirənin sonunda mütəxəssislər tərəfindən suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***



# Qızlar Liseyi gələcəyin ziyalı xanımlarını yetişdirir

*Muxtar respublikamızda təhsilə böyük qayğı göstərilir. Müasir tələblər səviyyəsində inşa olunan təhsil müəssisələri bu sahənin inkişafına yeni üfüqlər açır. Məktəb tikintisi təkcə Naxçıvan şəhəri və ya rayon mərkəzləri ilə məhdudlaşmır, həmçinin ucqar dağ və sərhəd kəndlərində də ən müasir tələblərə cavab verən yeni məktəb binaları tikilir. İstifadəyə verilən məktəblərin hər birində müasir texniki avadanlıqlar quraşdırılır, kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar yaradılır, müasir kompüter dəstləri müəllim və şagirdlərin ixtiyarına verilir. Naxçıvan Qızlar Liseyi də bu qayğıdan bəhrələnən təhsil ocaqlarından biridir.*

Azərbaycanda bütün dövrlərdə elmə, mədəniyyətə xüsusi önəm verilmiş, eləcə də qadının maariflənməsi, cəmiyyətdə və ailədə layiqli mövqeyə sahib olması daim diqqətdə saxlanılan məsələlərdən olmuşdur. Qadın ana kimi gələcəyimiz olan körpələrimizin ilk müəllimi, ən böyük tərbiyəçisidir. Ona görə də bu gün orta məktəb partası arxasında elmin ilkin sirlərinə yiyələnən qızlarımızın cəmiyyətə savadlı bir fərd kimi daxil olması vacib məsələlərdən biridir. Bu baxımdan maarifçi-ziyalılarımız həmişə qızların mükəmməl təhsil almasına çalışıblar. Fəal və mübariz Azərbaycan qadını hər zaman öz fəaliyyətində xalqımızın milli-mədəni ənənələrinin qorunub saxlanılmasına və zənginləşməsinə çalışıb. Onların qəhrəmanlığı tariximizin şərəfli səhifələrini təşkil etməklə yanaşı, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, yüksək əxlaqi, mənəvi keyfiyyətləri, vətənpərvərliyi və Vətənə hədsiz sədaqəti ilə seçilən gənclərin yetişdirilməsini diktə edir. Məhz bu cür gəncliyin formalaşması ən əvvəl ailənin, xüsusilə ananın üzərinə düşən əsas vəzifələrdəndir. Bu gün böyütdüyümüz qızlar ulu nənələrimizin, tariximizin səhifələrində ad qoymuş qadınlarımızın mənəvi varisləri kimi formalaşdırılmalıdırlar. Bu baxımdan Naxçıvan Qızlar Liseyi öz işini bu ənənələri qoruyaraq yüksək təhsilli, intellektual səviyyəli, vətənpərvər, əsl azərbaycanlı xanımının keyfiyyətlərini özündə daşıyan qızlar yetişdirmək yönündə qurmuşdur.

Qızlar Liseyi 1992-ci ildən fəaliyyət göstərir. 2012-ci il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 88-ci ildönümü günündə liseyin 608 şagird yerlik müasir binası pedaqoji kollektivin və şagirdlərin istifadəsinə verilib. Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Müəllimlərin qarşısında duran mühüm vəzifələrdən biri yeni məktəb binasında şagirdlərə müasir dövrün tələbləri səviyyəsində təhsil verməkdir. Bunun üçün məktəb binasında hər cür şərait yaradılmışdır. Göstərilən bu cür qayğının müqabilində bundan sonra da qazanılan uğurları davam etdirmək, məktəbin nailiyyətlərini artırmaq lazımdır".***

Hazırda burada təhsil alan 377 şagirdin təlim-tərbiyəsi ilə 57 müəllim və tərbiyəçi məşğul olur. Müəllimlərdən 1-i "Tərəqqi" medalı ilə təltif olunmuş, 4-ü "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülmüş, 2-si isə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibidir.

Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada 29 sinif otağı, laboratoriyalar, elektron lövhəli siniflər, kompüter və müəllimlər otaqları, idman zalı vardır. Muxtar respublika məktəblərində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi təhsilin məzmunca yeniləşməsinə səbəb olub. Tədrisin yüksək səviyyədə qurulması üçün liseyə 49 kompüter verilib, onlardan 1-i kitabxanada, 48-i isə kompüter siniflərində quraşdırılıb və internetə çıxışları təmin edilib, 4 elektron lövhəli sinif yaradılıb. Bunlardan ikisi şahmat otağıdır.





Liseydə klassik və müasir Azərbaycan, həmçinin dünya ədəbiyyatı nümunələri ilə zəngin kitabxananın olması şagirdlərin biliklərinin, intellektual səviyyələrinin yüksəldilməsinə geniş imkanlar açıb. Kimya, biologiya və fizika laboratoriyaları tədris avadanlıqları ilə zəngindir. Bu laboratoriyalarda müvafiq fənlər üzrə dərslərin tədrisi yüksək səviyyədə aparılır. İlk tibbi yardım kabinəsi lazımi avadanlıqlar və məlumat stendləri ilə təchiz olunub, burada şagirdlərə ilk tibbi yardımın sirləri öyrədilir. Liseydə musiqi dərslərinin də yüksək səviyyədə tədrisi üçün musiqi otağı yaradılıb, məktəbə piano verilib. Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, milli adət-ənənələrini gələcəyin anaları olan qızlarımıza aşılamaq üçün liseydə xalçaçılıq, tikiş-toxuculuq və kulinariya dərnəkləri fəaliyyət göstərir. Dərnəklərin keçirilməsi üçün xüsusi olaraq əmək kabinəsi, xalçaçılıq otağı yaradılıb. Liseydə fakültativ və dərsdənkənar məşğələlərin hesabına mənəviyyat dərsi tədris olunur. Bu dərslərin keçirilməsində məqsəd qızlarımıza əsl insani keyfiyyətləri, azərbaycanlı xanımına məxsus mənəvi dəyərləri aşılamaqdır. Burada vaxtaşırı diskussiyalar, seminarlar keçirilir ki, bu da şagirdlərdə nitq mədəniyyətini və dünyagörüşünü formalaşdırır.

Liseydə müvafiq qurğularla təchiz olunmuş idman zalı var. Şagirdlər burada həm fiziki tərbiyə dərslərinin tədrisi, həm də dərsdənkənar idman məşqləri ilə məşğul olurlar.

Muxtar respublikamızda təhsilə göstərilən yüksək dövlət qayğısının nəticəsidir ki, liseydə hər il ali məktəblərə qəbul imtahanında yüksək bal toplayan şagirdlərin sayı artır. Son 5 il ərzində məktəbin məzunlarından 49-u 500-700 intervalında bal toplayıb. Lisey fəaliyyətə başlayandan məzunlardan 5-i "Qızıl", 3-ü isə "Gümüş" medala layiq görülüblər. 2016-2017-ci tədris ilinin məzunu Günnar Fərəcova ali məktəblərə qəbul imtahanlarında 691 bal toplayaraq Prezident təqaüdünə layiq görülüb və topladığı bala görə muxtar respublika birincisi olub. Ötən tədris ilində liseyi 42 məzun bitirib. Məzunlardan 1-i "Gümüş" medala, 7-si fərqlənmə attestatına layiq görülüb, 13 nəfər 500-700 intervalında bal toplayıb. Liseyin uğurlarının ilbəil artmasının nəticəsidir ki, muxtar respublikada bu təhsil ocağı yüksək nüfuz qazanmışdır. Hər il liseyə müraciət edənlərin sayı əvvəlki illərə nisbətən daha da artmaqdadır. Hazırda liseyə sənəd qəbulu davam edir.

Bu gün muxtar respublikamızda təhsil sahəsində davamlı olaraq həyata keçirilən islahatlar bir daha əmin olmağa əsas verir ki, müasir təhsil sistemi özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcəkdir. Naxçıvan Qızlar Liseyinin kollektivi də həmin inkişafa öz töhfəsini vermək üçün bundan sonra da təhsilin keyfiyyətinə nəzarəti gücləndirəcək, savadlı, müasir və dünyagörüşlü azərbaycanlı qızların yetişməsində səyini artıracaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan nümayəndə heyəti Bakı Qlobal Sağlamlıq Turizmi Forumunda iştirak edib




Aprelin 23-də Bakı şəhərində 2019-cu ildə Azərbaycan Dövlət Turizm Agentliyinin rəsmi dəstəyi, Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyasının birgə təşkilatçılığı ilə 3-cü Qlobal Sağlamlıq Turizm Forumu keçirilib və Qlobal Sağlamlıq Turizm Şurasının 5-ci Assambleyası öz işinə başlayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov və "Duzdağ" Otelin icraçı direktoru Novruz Novruzov iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov tədbirdə çıxış edərək muxtar respublikanın turizm potensialı haqqında forum iştirakçılarına geniş məlumat vermişdir. Həmçinin Naxçıvan Muxtar Respublikasının turizm potensialını əks etdirən videoçarx nümayiş etdirilmişdir.

Tədbirin rəsmi hissəsində Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Qarabağlar, Naxçıvan-Gəmiqaya, Naxçıvan-Ordubad, Naxçıvan-Gülüstan, Naxçıvan-Əlincəqala, Naxçıvan-Duzdağ, Naxçıvan-Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi, Naxçıvan-Şahbuz-Batabat turist marşrutlarının bukletləri, Naxçıvan Muxtar Respublikasının Turist Xəritəsi və Naxçıvan təbiəti albom-kataloqunun daxil olduğu təbliğat materiallarından ibarət hədiyyə paketləri xarici ölkə nümayəndələrinə təqdim edilmişdir.

Qlobal Sağlamlıq Turizm Şurasının sədri Ruslan Quliyev tədbirdə Naxçıvan Muxtar Respublikasını təmsil edən nümayəndə heyətinə iştirak üçün minnətdarlığını bildirmişdir.

Qeyd edək ki, Qlobal Sağlamlıq Turizm Şurasının 60-a yaxın üzvü sırasında ABŞ, Almaniya, Böyük Britaniya, Türkiyə, Polşa, Yunanıstan, Macarıstan, Bolqarıstan, Rusiya, Ukrayna, Gürcüstan, Çin Xalq Respublikası, Hindistan, İran İslam Respublikası, Qazaxıstan, İordaniya Krallığı, Səudiyyə Ərəbistanı və başqa ölkələr təmsil olunur.

**"Şərq qapısı"**

# Pedaqoji təcrübənin yekununa həsr edilmiş konfrans

"Naxçıvan" Universitetində Pedaqoji və Xarici dillər fakültələrinin əyani şöbə üzrə III kurs tələbələrinin 2018-2019-cu tədris ilinin ikinci yarısında keçdikləri pedaqoji təcrübənin yekununa həsr edilmiş konfrans olub.



Konfransı giriş sözü ilə universitetin prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu açıb. Prorektor 108 tələbənin Heydər Əliyev adına tam orta məktəbdə, həmçinin 11 və 15 nömrəli tam orta məktəblərdə təcrübəni uğurla başa vurduğunu diqqətə çatdırıb.

Konfransda Pedaqoji fakültənin dekanı Nurlana Əliyevanın "Pedaqoji fakültə üzrə təcrübənin yekunları haqqında", Xarici dillər fakültəsinin dekanı Yasin Babazadənin "Xarici dillər fakültəsi üzrə təcrübənin yekunları haqqında" çıxışları dinlənilib.

Sonda pedaqoji təcrübədə fərqlənən tələbələrə fəxri fərmanlar təqdim edilib.

**Seyfur HACIMURADOV**

# Böyük şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə tədbir

***Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə tədbir keçirilib.***



Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova giriş sözü ilə çıxış edərək bildirib ki, bu il Azərbaycanın dahi şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi təkcə ölkəmizdə deyil, dünyada rəngarəng tədbirlərlə qeyd olunmaqdadır.

Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimi klassik Azərbaycan poeziyasında öz yaradıcılıq yolu ilə seçilən, anadilli poeziyamızın inkişafında müstəsna xidmətləri olan söz ustadıdır. İdealları uğrunda mübarizə aparan, hətta son nəfəsində də öz ideyasından dönməyən bu böyük tarixi şəxsiyyətin irsi altı əsrdir ki, öyrənilir.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin ölkəmizdə birinci rəhbərliyi dövründə, yəni 1973-cü ildə YUNESKO-nun qərarı ilə Nəsiminin anadan olmasının 600 illiyi beynəlxalq miqyasda qeyd edilib. Həmin dövrdə Nəsiminin irsinin tədqiqi və adının əbədiləşdirilməsi istiqamətində məqsədyönlü işlər görülüb. Bu gün AMEA-nın Dilçilik İnstitutu böyük şairin adını daşıyır. Paytaxt şəhərimizin bir rayonuna Nəsiminin adı verilib.

2018-ci il noyabr ayının 15-də isə ölkə Prezidenti "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Bu, böyük şair və mütəfəkkirə dövlət səviyyəsində verilən dəyərin və ehtiramın ifadəsidir. Eyni zamanda sərəncam Azərbaycan mədəniyyətinin, zəngin tarixi-mədəni irsin təbliğinə də çox böyük töhfədir. Onu da qeyd edək ki, 2019-cu il 11 yanvar tarixli Sərəncamla 2019-cu il Azərbaycanda "Nəsimi ili" elan olunub.

Bildirilib ki, bu gün ölkəmizin hər yerində Nəsiminin bədii irsi ilə bağlı rəngarəng tədbirlər keçirilir. Muxtar respublikamızda da Nəsimi ilə bağlı müxtəlif səpkili silsilə tədbirlər keçirilməkdədir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev "Anadilli şeirimizin böyük ustadı", Əməkdar elm xadimi, professor Hüseyn Həşimli "İmadəddin Nəsimi yaradıcılığının ideya-bədii xüsusiyyətləri" mövzularında çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, Nəsimi Azərbaycan ədəbi dilinin inkişafına çox əhəmiyyətli təsir göstərib, onu leksika, bədii ifadə vasitələri ilə zənginləşdirib. Nəsimi poeziyasının ideya-bədii xüsusiyyətləri onun davamçısı olan şairlərin yaradıcılığında aydın duyulmaqdadır.

Tədbirin bədii hissəsində dahi şairin qəzəlləri qiraət edilib. Sonra muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

*Babam hər zaman deyirdi ki, uzun qışın sakitliyindən sonra yazda göy gurladısa, artıq çöl pencəri yemənin zamanıdır. Dünyagörmüş insanlar yazın yağışlı günlərində çöl pencərlərinin boy atıb torpaqdan baş qaldırdığını deyirlər. Belə günlərin birində ətrafa ani işıq saçan şimşəyin səsi bu dədə-baba deyimlərini yadıma saldı.*

Yurdumuzun nemətləri

# Yaz mətbəximizin yaşıl dadı-tamı

***Yadıma düşür...***

İlin bu vədəsində kəndimizdə nənəmgil günün çoxunu dağların yamyaşıl qoynunda keçirərdilər. Cacıq, ələyəz, yarpız, nanə, xıncılovuz, kəklikotu, çaşır, bolu, baldırğan, uşqun, çiriş, qazayağı, solmazçiçək, dazotu, quzuqulağı, bulaqotu kimi min bir dərdin dərmanı olan nemətlərdən qucaq-qucaq yığıb gətirərdilər. Onlardan yaz süfrəsinin bəzəyi olan pencər qovurması, kükü, kətə, qutab və sair yeməklər bişirər, bu pencərlərdən qohum-əqrəbaya da pay tutardıq. Əvəlik və ələyəzi isə nazlı gəlin saçı sayağı hörüb qışa tədarük görərdik.

O günləri xatırlamaq necə də gözəldir... İş-gücümüzlə əlaqədar olaraq şəhərimizi tərk edib kəndimizə çox vaxt üz tuta bilmirik. Ancaq bəzi həftəsonları imkan tapanda şəhərin hay-küyündən yaxamızı qurtarıb kəndə gedirik. İmkan olanda təbiətin qoynuna da çıxırıq. Amma əvvəlkitək ot-alaf arxasınca düşməyə vaxtımız qədərincə çatmır. Nə yaxşı ki zəhmətkeş kənd adamları bu gözəl ənənələri qoruyub saxlayıblar. Məhz onların min bir zəhməti bahasına dükan-bazarlarımız mövsümi bitkilərlə dolub daşır. İstirahət günü cacıq, qazayağı, xıncılovuz kimi mövsümi pencərlərdən, kətə bişirmək üçün isə çiriş almaqdan ötrü bazara getməyi planlaşdırdım.

***Bir gün sonra...***

Nə yaxşı ki həftəsonları doğma paytaxt şəhərimizdə kənd təsərrüfatı məhsullarının satışı yarmarkasının keçirilməsi ənənəsi formalaşıb. Zəhmətkeş kənd adamları yetişdirdikləri keyfiyyətli yerli məhsulları yarmarkaya gətirib sərfəli qiymətə satırlar. Təbii ki, ilin bu vədəsində belə məhsullar sırasında təbiətin bizə bəxş etdiyi çöl bitkilərini rahatlıqla əldə etmək bütün sakinlərin ürəyincədir.

Səhərin erkən saatları olmasına baxmayaraq, bu istirahət günü də bazarda həmişəkindən daha çox izdiham yaşanırdı. Diqqətimdən o da yayınmadı ki, daha çox sıxlıq məhz təzə tərəvəz məhsulları və pencər piştaxtalarının önündədir. Yarmarkaya rayonlardan çeşid-çeşid məhsullar çıxarılmışdı. Hamısı da bir-birindən təravətli. Etiraf edim ki, bolluqdan nəyi haradan alacağıma qərar verməkdə çətinlik çəkirdim.

Təbiət Naxçıvanın minlərlə çeşid bitkilərinə sanki bir nizam bəxş edib. Ta ki qar yerə düşənə qədər bir-birini əvəz edən həmin bitkilərdən insanlar yararlanır, hələ, üstəlik, qış üçün də tədarük edirlər. Bərəkətli dağlara, dərələrə, düzlərə üz tutan heç vaxt əliboş qayıtmır. Bu pencərlərin hər birinin öz yığılma vaxtı, bişirilmə qaydası, qışa tədarük edilmə və hətta yeyilmə üsulu var. Məsələn, digər pencərləri qovurub, bişirib yediyimiz halda, yarpızla yeyilən pendir



dürməyi insana bütün nemətlərdən dadlı gəlir.

Qazayağı da Naxçıvanda yaz mövsümünün ən çox sevilən bitkiləri sırasındadır. Torpağın yaxasından qar öz əlini üzdümü, dağları, düzləri yaşıl örpəyə bürüyən yabanı otlar sırasında tezliklə qazayağıya da rast gələ bilərik. Əsasən də düzən və orta dağlıq ərazilərdə bitən bu bitkini yazın əvvəllərində toplayıb bazarlara çıxarırlar.

Bu işlə məşğul olanlardan biri də Babək qəsəbə sakini Zamin Məmmədovdur. O deyir ki, Sirabın ətrafındakı təpələrin, düzlərin sirlərinə yaxşı bələdəm. 40 ilə yaxındır ki, o yerlərdən belə bitkiləri toplayırıq. Heç zaman da əliboş qayıtmırıq. Şükür ki, bu il də havalar xoş və yağıntılı keçdiyindən bolluqdur. Həftə ərzində yığdığımız bu pencərləri istirahət günlərində gətirib burada rahatca satırıq. Bu pencərlərin dadını, faydasını bilən dünyagörmüş insanlar yaz aylarında, demək olar ki, göy-göyərtiyə daha çox üstünlük verirlər. Hətta yığdığımız, yetişdirdiyimiz pencərləri başqa şəhərlərdəki qohum-əqrəbalarına göndərənlər də az deyil.

Bazarı gəzdikcə müxtəlif kənd təsərrüfatı məhsulları ilə yanaşı, qazayağı, cacıq, şomu, sobu, bolu, əvəlik, ələyəz, yarpız, nanə, təzə dərilmiş soğan, sarımsaq, tərxun, keşniş, şüyüd, cəfəri, kəvər kimi nemətlərin bolluğuna düşürsən. Hər birindən alıb süfrəni bəzəmək istəyirsən. Ana təbiətin mineral gübrəsiz, dava-dərmansız yetişdirdiyi, insan sağlamlığı üçün möcüzəvi faydaları olan bitkilərdən hazırlanan müxtəlif çeşiddə yemək nümunələri mətbəx mədəniyyətimizi zənginləşdirib. Bu bitkilər uzunömürlülüyün sirrini də özündə qoruyub saxlayır.

Qazayağıdan sonra bir az da cacıq almaq qərarına gəldim. Xüsusilə atam çox xoşlayır. Qaynadıb qovurduqdan sonra üzərinə yumurta da çırpdıqda dadından doymaq olmur. Hələ qışdan qalma qovurmanı da qatanda insanlarımızın qədimdən bəri formalaşan damaq zövqünə heyran olursan.

Bazarda ən çox alınan məhsullar sırasında idi cacıq. Bu pencərin özünəməxsus dadı var. Xüsusilə Şahbuz və Ordubad dağlarının məhsulu olan cacıq alarkən həmsöhbət olduğum Heydər Bayramov məndə o təəssüratı oyatdı ki, bu zəhmətkeş insanlara, sadəcə, təsərrüfatçı və ya satıcı demək olmaz. Onlar bu bitkilərin dilini, sirrini bilirlər. Heydər əmi Şahbuzun Kükü, Qanlıgöl, Keçəldağ, Batabat kimi səfalı oylaqlarından toplanan cacıq, çaşır, kəklikotu, yemişan, həmərsinin faydalarını o qədər sadaladı ki...

Onun muxtar respublikamızın nadir bitkilər siyahısına daxil edilən baldırğan haqqında dediklərini xatırlayıram. Şahbuzun Salvartı yaylağında və Keçəldağ yamacları ətrafında yayılmış baldırğanın yarpağı, kök və toxumları ayrı-ayrılıqda bir çox dərdin dərmanıdır. Onun dəmləməsindən daxili xəstəliklərin iltihabında istifadə edilir. Ürəkkeçmələrdə, astma xəstəliklərinin müalicəsində çox faydalı olan bu bitkinin kök hissəsindən alınan dərmanın qaraciyər və sarılıq xəstəliklərinə faydası çoxdur.

Naxçıvan kətəsinin onlarla növü var. Mərciməkdən tutmuş boranıya qədər müxtəlif naz-nemətlərdən kətə hazırlayır xanımlarımız. Ancaq etiraf etməliyik ki, Naxçıvan kətəsi dedikdə, ağıla ilk gələn çiriş kətəsidir.

Şahbuz rayonunun Kolanı kəndindən bazara çiriş çıxaran təsərrüfatçı Həsən kişi bildirdi ki, kənd camaatı hansı bitkinin nə zaman yığılmasını çox yaxşı bilir. Çirişin də tədarükünə yeni başlamışıq.

***Əkin sahələri ailə təsərrüfatlarının daimi iş yerlərinə çevrilir...***

Babək qəsəbəsində yaşayan Mehdi Hacıyev bu il daha da genişləndirdiyi ailə təsərrüfatında tərxun yetişdirir. Onlar üçün ayrılmış torpaq sahəsində 30 ilə yaxındır ki, tərəvəz və daha çox tərxunun əkini ilə məşğul olan Hacıyevlər bu işi ailə ənənəsinə çeviriblər. Ailə üzvləri hələ qış aylarından tərxun əkininə başlayırlar. Bu il də havaların xoş keçməsi onlar üçün yaxşı fürsət olub. O deyir ki, mülayim hava şəraitindən və mütəxəssislərin tövsiyələrindən istifadə edərək yüksək məhsuldarlığa nail olublar. İstixanalarda bir neçə ay ərzində xüsusi qulluq bahasına yetişdirilən tərxun artıq qışın son günlərindən, martın əvvəllərindən satışa çıxarılıb.



Sahibkar bildirdi ki, dolanışığımızı elə bu məşğuliyyətimizdən əldə edirik. Zəhmət çəkən insan heç vaxt ac qalmaz. Üstəgəl, əhalinin də ruzisini təmin edər. Biz çox sevinirik ki, bu işin öhdəsindən gələ bilirik. Becərmədə kimyəvi maddələrdən deyil, əsasən, təbii çürüntü məhsullarından istifadə edirik. Bu da məhsulun dadına dad, ətrinə ətir qatır. Qızım, hələ onu da deyim ki, bizim yetişdirdiyimiz tərxunun sorağı çox-çox uzağa da gedib çatıb. Hər il biz Naxçıvanın dadlı-ətirli tərxununu Bakıya, hətta Rusiyaya da göndəririk.

Onu da qeyd edək ki, tərxun həm də sənaye əhəmiyyətli məhsuldur. Ondan sərinləşdirici içkilərin hazırlanmasında aromat kimi də istifadə edilir.

Müsahiblərimin söhbətlərindən belə qənaətə gəldik ki, Naxçıvan bazarını istər yay, istərsə də qış aylarında təzə göyərti məhsulları ilə təmin edən əsas bölgələrdən biri Babək rayonudur. Xüsusən də Babək qəsəbəsində göyərti əkib-becərməklə öz ruzilərini qazanan torpaq mülkiyyətçiləri kifayət qədərdir. Onlardan biri də Gəray Əliyevdir. 1 hektardan artıq sahədə göy-göyərti becərən müsahibim deyir ki, göyərtiyə yaz aylarında tələbat ikiqat olur. Qış aylarında isə istixanalar bu tələbatın ödənilməsində əsas rol oynayır.

Kənardan göy-göyərti alan alıcı da söhbətimizə qoşulur: "Elə bunun sayəsində qışın oğlan çağında belə, Naxçıvan bazarında istənilən göyərtini təzə-tər tapmaq mümkün olur. Əvvəllər qış fəslində bəzi yeməklərin bişirilməsində göyərtilərin qurudulmuşundan istifadə edirdiksə, indi buna ehtiyac qalmayıb".

***Zəngin təəssürat...***

Bir sözlə, yarmarkadan əlidolu qayıtdım. Həm dadlı, faydalı pencərlər, müxtəlif kənd təsərrüfatı məhsulları ilə, həm də zəhmət adamlarının səmimi ünsiyyətindən qazandığım təəssüratlarla. Yüzlərlə mədəni və yabanı bitkilər yetirən bərəkətli torpaqlarımızın qədrini bilən zəhmət adamları ilə söhbətlərimizi yada salanda düşünürəm ki, nə yaxşı belə zəhmətkeş insanlarımız vardır. Onların hər biri söhbət zamanı bunu xüsusi vurğuladı ki, ana təbiət bizə bu ruzini bəxş edirsə, biz də onun qədrini bilməliyik.

*Onu da qeyd etməyi lazım bilirəm ki, bəzi insanlar təbiətlə düzgün rəftar etmir, dərman bitkilərini, yabanı meyvələri necə gəldi yığıb, özləri də bilmədən kökünü kəsirlər. Ana təbiət bizə bu sərvəti bəxş edibsə, bizim də borcumuz təbiətimizi mühafizə etməklə qiymətli sərvətlərimiz olan bitkilərimizi qorumaqdır. Çünki bu, hamımızın sağlam qida mənbəyidir.*

**Gülcamal TAHİROVA**

Xalq təqvimi

# Lalə dövrü



*Ata-babalarımız tərəfindən xalq təqvimində aprel ayının bəzi günlərinə müəyyən adlar verilib. Bunlardan biri də lalə dövrüdür. Ayın son günlərinə təsadüf edən bu dövrdə çöl-çəmən qırmızı xalıya bürünür.*

Aprel ayının, təxminən, ikinci həftəsindən muxtar respublikanın aran zonasında dağ və təpələrin güney tərəflərində xalqın "sarı çiçək" adlandırdığı, yağıntılı illərdə hündürlüyü 40-50 santimetrə çatan bu çiçəklər tala-tala bitir. Belə bir deyim vardır ki, sarı çiçək çıxdısa, deməli, qoyun-quzuya evdə yem verməzlər. Heyvanlar təzə-tər vaxtı bu çiçəkləri yemirlər. Amma sarı çiçəyin yetişməsi heyvanları doyuracaq digər otların da çıxmasına işarədir. Sarı çiçəyin görünməsindən 5-10 gün keçəndən sonra lalə dövrü başlayır. Maraqlıdır ki, dağ yamaclarında sarı çiçək və lalə eyni sahədə qarışıq örtük əmələ gətirir və kənardan baxanda qırmızı rəng daha çox görünsə də, yaxından sarı-qırmızılı talalar göz oxşayır. Muxtar respublika ərazisində lalənin bir çox növü olsa da, iki növü – dağlıq zonada çoxləçəkli və çoxillik böyük xaşxaş laləsi, aran zonasında isə dördləçəkli kiçik xaşxaş laləsi daha geniş yayılıb. Aran laləsi istər təzə vaxtı, istərsə də quruyandan sonra heyvanların yemini təşkil edir. Saplağı qırandan sonra çıxan süd insanın bədəninə dəyəndə qırmızı ləkə əmələ gəlir və bir neçə gün getmir.

Lalə arıçılığın inkişafında da mühüm rol oynayır. Qışdan zəif çıxan arı ailələri bu dövrdə sürfə qoyub ailəni gücləndirməyə çalışır. Arılar əvvəlcə sarı, sonra isə qara güləm (çiçək tozu) gətirir. Arı sürfələri çiçək tozu və bal (şəkər) ilə qidalanır. Ona görə də arıçılar üçün lalə dövrü daha çox zəhmət tələb edir. Bu dövrdə arı ailələrini daim nəzarətdə saxlamaq, yemi az olan arı ailəsinə əlavə şirə vermək, zəif arı ailələrinə güclü ailələrdən sürfələr olan pətək götürüb qoymaqla, zəif ailəni gücləndirmək lazımdır.

Xalq təqviminə görə, aprel ayı çıxmamış, yəni lalə dövründə Naxçıvanda qoyunları (xüsusən çöldə saxlanılan qoyunları) qırxmazlar. Bu il olduğu kimi bəzən təbiət şıltaqlıq edir, qar yağır. Bu zaman qırxılmış qoyunlar çöldə xəstələnib ölə bilər. Ağacları isə şaxtadan qorumaq üçün ağac yonqarını yandırıb tüstüsünü bağa verərlər.

Yazın bu dövründə təbiət nə qədər füsunkar olsa da, bəzi insanlar üçün heç də sevindirici deyil. Bir çoxlarında bu vaxtlar bitən çiçəklərdən allergiya yaranır. Xüsusən bu mövsümdə tez-tez rast gəlinən allergiya növü həmin insanları çox narahat edir. Bu xəstəlik formasına görə qripə oxşasa da, ən çox gözlərə təsir edir. Göz qızarıb sulanır, günəşə baxmaq olmur.

Lalə dövründə bəzi günlərə təsərrüfatlarda görüləcək işlərlə bağlı müxtəlif adlar verilib. Belə ki, payızda əkilən taxıllar yazda öz dibinə kölgə saldığı vaxt ikinci su verilir. Bu su, adətən, aprelin 15-dən sonra verilir. Həmin su el arasında "xəkov" və ya "armudavar" adlanır. Bildiyimiz kimi, alma, armud ağacları ərik, alçaya nisbətən gec çiçək açır. Ona görə armud, almanın çiçəkləməsi taxıla ikinci su verməyin vaxtını bildirir.

Aprelin 20-dən sonra olan dövrə el arasında "qaranquşun palçıq bağlayan" dövrü də deyirlər. Bu dövrdə qaranquşlar köhnə yuvalarını sahmana salır və ya təzə yuva qururlar. El arasında deyirlər ki, bu dövr kəsilən kərpic möhkəm olar. Vaxtilə evlər çiy kərpicdən hörülərdi. Ona görə də bu dövrdə kərpic kəsilib hazırlıq görülər, yay girəndə tikinti işlərinə başlanardı.

Bütün bunlar göstərir ki, aprel ayının xalq təqvimində məxsusi yeri var və bu ayda görüləcək işlərə uyğun adlar müəyyənləşdirilib.

**Zaleh NOVRUZOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 285